# Ağdamın baş planı təqdim ediləndə əmin olduq ki, bütün ərazilərimiz yeni inkişaf mərhələsinə qədəm qoyur

***Azərbaycanda işğaldan azad edilmiş ərazilərin bərpası istiqamətində genişmiqyaslı fəaliyyət davam edir. Artıq bir sıra istiqamətlərdə, xüsusən regionun enerji ilə təminatı, yol infrastrukturunun qurulması, dəmiryol xətlərinin və hava limanlarının tikintisi sahəsində ciddi addımlar atılmaqdadır. Təbii ki, Prezident İlham Əliyevin həmin ərazilərə səfərləri zamanı yeni-yeni obyektlərin təməlinin qoyulması da işlərin ardıcıllıqla davam etdiyini göstərir.***



Bu günlərdə dövlət başçısının Ağdama səfəri zamanı da yeni bərpa-quruculuq işlərinin sorağını aldıq və bu, bizi həddən artıq sevindirdi. Prezident Şahbulaq qalasında olarkən ona abidənin yenidənqurma planı təqdim edildi. Səfər çərçivəsində Prezident İlham Əliyev Ağdam şəhər 1 saylı məktəbin yeni binasının, Ağdam Sənaye Parkının, Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməlqoyma mərasimində iştirak etdi. Dövlət başçısına Ağdamda yaradılacaq Zəfər muzeyi və açıq hava altında İşğal muzeyi haqqında məlumat verildi, həmin muzeylər kompleksinin İtaliya şirkəti tərəfindən hazırlanmış konsepsiyası təqdim edildi. Əlbəttə, məqsədimiz səfər zamanı Azərbaycan liderinin atdığı bütün addımları sadalamaq deyil. Onu demək istəyirik ki, artıq işğaldan azad edilmiş ərazilər bir-birinin ardınca bərpa olunur, təxminən 30 ildən bəri gözləri yollarda qalmış, Vətən həsrəti ilə qovrulmuş vətəndaşlarımızın ləyaqətli şəkildə öz yurd-yuvalarına qayıtmaları üçün tədbirlər görülür.

Elə Ağdam ictimaiyyətinin nümayəndələri ilə görüşdə çıxış edərkən də Prezident bildirdi ki, artıq Ağdam şəhərinin baş planı hazırdır. Həmin gün – mayın 28-də rayonun tanınmış şəxsləri baş planla tanış oldular. Prezident rayon ictimaiyyəti ilə görüşdə bəyan etdi: “İkinci Qarabağ müharibəsi bir daha Azərbaycan xalqının əzmini, iradəsini göstərdi, bütün dünyaya göstərdi və bu şanlı Qələbə tarixdə əbədi qalacaqdır. Bundan sonra Azərbaycan dövləti qalib dövlət kimi inkişaf edəcək. Azərbaycan xalqı müzəffər xalq kimi yaşayacaq, qürur hissi ilə yaşayacaq. Ermənistan isə məğlub edilmiş dövlətdir və bizim işğal altında olan torpaqlarda törədilmiş vəhşilik o erməni lobbi təşkilatlarının öz xalqı haqqında yaratdıqları mifologiyaya da son qoydu. Çünki bu dağıntıları törədən vəhşidir. Bunun başqa adı yoxdur. Təkcə bura deyil, azad edilmiş bütün torpaqlarda mənzərə eynidir. Mən maşınla yüz kilometrlərlə torpaqları gəzərkən gördüm ki, sağda-solda hər şey dağıdılıb, talan edilib. Sanki bu torpaqlardan vəhşi qəbilə keçib. Mən bunu demişəm, bir daha burada Respublika Günündə Ağdam şəhərində demək istəyirəm, bizim müharibəmiz təkcə faşist Ermənistan dövlətinə qarşı deyildi, bizim müharibəmiz faşizm əleyhinə müharibədir. Bizim qələbəmiz göstərir ki, bütün faşistlərin aqibəti, bax, ermənilərin aqibətinə bənzər olacaq”.

Prezident mayın 28-ni tarixi gün kimi xarakterizə edərək bildirdi ki, bu gün azad edilmiş torpaqlarda birinci baş plan artıq təsdiqlənir. Şuşa şəhərinin baş planı da hazırlanır, bir müddətdən sonra təsdiqlənəcək. Füzuli şəhərinin, Cəbrayıl şəhərinin, digər şəhərlərin baş planları üzrə işlər gedir. Amma birinci baş plan Ağdamda təsdiqlənir. Cənab İlham Əliyev dedi ki, artıq bir neçə tədbir keçirilib. Ağdam şəhəri üçün çox önəmli olan 1 saylı məktəbin təməli qoyulub. Bu məktəbin çox böyük, 140 illik tarixi var. Bundan başqa, gələcəkdə yeni iş yerlərinin yaradılması üçün Ağdam Sənaye Parkının təməli qoyulub. Bu parkın ərazisi təqribən 200 hektara yaxındır və orada yüzlərlə, minlərlə insan işlə təmin ediləcək. Bərdə–Ağdam avtomobil yolunun təməli qoyulub və yaxın gələcəkdə yol istismara veriləcək: “Eyni zamanda, mənim göstərişimlə Bərdə-Ağdam dəmir yolunun və dəmir yolu vağzalının tikintisi nəzərdə tutulur. İmarət kompleksinin bərpası ilə əlaqədar artıq işlərə start verilir. Ağdamda İşğal muzeyi və Zəfər muzeyi konsepsiyası mənə təqdim edildi. Yer seçildi və həm Zəfər, həm İşğal muzeyləri çox möhtəşəm olacaq. Digər obyektlər, digər tədbirlər, böyük meşə sahəsinin təməli qoyuldu. Şəhərin içində böyük bir meşə zolağı olacaq – 125 hektarlıq. Süni göl yaradılacaq, kanallar, körpülər. Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası “yaşıl enerji” zonası olacaq. Bütün şəhərlər “ağıllı şəhər” konsepsiyası əsasında qurulacaq”.

Azərbaycan ictimaiyyəti əmindir ki, Prezident İlham Əliyev, həmişə olduğu kimi, nəzərdə tutduğu bütün tədbirləri ardıcıllıqla həyata keçirəcək və işğaldan azad olunmuş bütün ərazilərimiz çiçəklənən diyara çevriləcək.

**Əziz ƏLƏKBƏRLİ,**
**Milli Məclisin deputatı**

Xalq qəzeti 2021.- 30 may.- S.13.